**Ramiz Ənvər oğlu Mehdiyev**

**Həyatı və fəaliyyəti**

| | |
|---|---|
| ***1938, 17 aprel*** | Bakı şəhərində anadan olmuşdur. |
| ***1945-55-ci illər*** | Naxçıvan şəhər A. S. Puşkin adına 3 saylı məktəbdə təhsil almışdır. |
| ***1956-57-ci illər*** | Bakı Dənizçilik Məktəbində təhsil almışdır. |
| ***1957-ci il*** | “Xəzərdənizneftqazsənaye” Ümumittifaq İstehsalat Birliyinin “Xəzərneftdonanma” İdarəsinin gəmilərində maşinist işləmişdir.<br><br>“Xəzərneftdonanma” idarəsinin komsomol təşkilatı katibinin müavini seçilmişdir. |
| ***1961-65-ci illər*** | Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin tələbəsi olmuşdur. |
| ***1962-ci il*** | Azərbaycan Dövlət Universitetinin tarix fakültəsi komsomol təşkilatının katibi seçilmişdir. |
| ***1963-cü il*** | Azərbaycan Dövlət Universiteti komsomol komitəsi katibinin müavini seçilmişdir. |
| ***1965-ci il*** | Universitetin V kursunda oxuyarkən Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin tələbə-gənclər şöbəsinin təlimatçısı təyin edilmişdir. |
| ***1967-68-ci illər*** | Naxçıvan Vilayət Komsomol Komitəsinin ikinci katibi vəzifəsində çalışmışdır. |
| ***1968-ci il*** | M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinin aspiranturasına daxil olmuşdur. |
| ***1972-ci il, may*** | MDU-nun Müdafiə Şurasının iclasında fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almaq üçün “V. İ. Lenin millətçiliyin və opportunizmin qarşılıqlı əlaqəsi haqqında” mövzusunda dissertasiya müdafiə etmişdir. |
| ***1972-ci il*** | Azərbaycan Dövlət Universitenin Elmi kommunizm kafedrasında müəllim, sonra isə baş müəllim işləmişdir. |
| ***1974-cü il, may*** | Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Təbliğat və təşviqat şöbəsində mühazirəçi vəzifəsinə irəli çəkilmişdir. |
| ***1975-ci il*** | Azərbaycan KP MK-nın ideologiya məsələləri üzrə katibinin |

| | |
|---|---|
| | köməkçisi təyin edilmişdir. |
| *1976-cı il, iyun* | Azərbaycan KP MK-nın elm və təhsil müəssisələri şöbəsi müdirinin müavini vəzifəsinə təsdiq edilmişdir. |
| *1978-cı il, oktyabr* | Azərbaycan KP 26 Bakı komissarı adına Rayon Komitəsinin birinci katibi seçilmişdir. |
| *1980-ci il* | "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir. |
| *1980-cı il, iyun* | Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsinin müdiri təyin olunmuşdur. |
| *1980-85-ci illər* | X çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. |
| *1981-ci il, yanvar* | Azərbaycan KP MK-nın Təşkilat-partiya işi şöbəsinin müdiri təyin olunmuşdur. |
| *1983-cü il, dekabr* | Azərbaycan KP MK-nın ideologiya məsələləri üzrə katibi seçilmişdir. |
| *1985-90-cı illər* | XI çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. |
| *1986-cı il* | "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir. |
| *1988-ci il, may* | Azərbaycan KP MK-nın plenumunda MK-nın katibi vəzifəsindən azad edilmişdir. |
| *1988-ci il, 1 iyun* | Azərbaycan Elmlər Akademiyasının İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunun şöbə müdiri təyin edilmişdir. |
| *1993-cü il, dekabr* | Fəlsəfə elmləri doktoru alimlik dərəcəsi almaq üçün "Millətlərarası münasibətlər: nəzəriyyə və siyasət problemləri" mövzusunda dissertasiya müdafiə etmişdir. |
| *1994-cü il, 4 fevral* | Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Prezidentin İcra aparatının ümumi şöbəsinin müdiri təyin olunmuşdur. |
| *1994-cü il, iyul* | Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının qərarı ilə fəlsəfə elmləri doktoru alimlik dərəcəsi verilmişdir. |
| *1995-ci il, 7 fevraldan indiyə kimi* | Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Prezidentin İcra Aparatının (indiki Prezident Administrasiyası) rəhbəri təyin olunmuşdur. |
| *1995-2000-ci illər* | Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. |
| *1998-ci il* | Azərbaycan Respublikası Milli Məclisinin Fəxri fərmanı ilə təltif olunmuşdur.<br><br>Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri fərmanı ilə |

| | |
|---|---|
| | təltif olunmuşdur. |
| *1999-cu il, 12 mart* | Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasının sədri təyin edilmişdir. |
| *2001-ci il, aprel* | Nyu-York Elmlər Akademiyasının üzvü seçilmişdir. |
| *2001-ci il, 19 iyun* | Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının sədri təyin edilmişdir. |
| *2001-ci il, 21 noyabr* | Yeni Azərbaycan Partiyasının II qurultayında Siyasi Şuranın üzvü seçilmişdir. |
| *2002-ci il, aprel* | Azərbaycan Fəlsəfə və Sosial-Siyasi Elmlər Assosiasiyasının (AFSEA) prezidenti seçilmişdir. |
| *2003-cü il, yanvar* | ‘Fəlsəfə və sosial-siyasi elmlər” jurnalının Redaksiya şurasının sədri seçilmişdir. |
| *2003-cü il, aprel* | Azərbaycan Respublikası Prezidenti yanmda Ali Attestasiya Komissiyasının qərarı ilə dövlət quruculuğunun təşkilati əsasları üzrə professor elmi adı verilmişdir. |
| *2004-cü ildən* | Həqiqi dövlət müşaviridir. |
| *2004-cü il, may* | Beynəlxalq Kembric Bioqrafiya İnstitutu tərəfindən Beynəlxalq sülh mükafatının laureatı adına layiq görülmüşdür. |
| *2006-cı il, 7 fevral* | Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Heraldika Şurasının sədri təyin edilmişdir. |
| *2007-ci il, yanvar* | Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Elmi Şurasının qərarı ilə Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri təyin olunmuşdur. |
| *2007-ci il, aprel* | Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. |
| *2008-ci il, 14 aprel* | Azərbaycan Milli Elmlər Akademiyasının fəxri fərmanı ilə təltif edilmişdir. |
| *2008-ci il, 17 aprel* | Dövlət qulluğunda səmərəli fəaliyyətinə və dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə “İstiqlal” ordeni ilə təltif edilmişdir. |
| *2008-ci il, may* | Rusiya Federasiyası Prezidentinin sərəncamı ilə “Dostluq” ordeni ilə təltif olunmuşdur. |
| *2009-cu il* | “Azerbaijan Focus” jurnalının Redaksiya şurasının sədri seçilmişdir. |
| *2011-ci il, 21 sentyabr* | Polşa Milli Təhlükəsizlik Bürosunun xatirə medalı ilə təltif |

| | |
|---|---|
| | edilmişdir. |
| ***2013, 17 aprel*** | Dövlət quruculuğu sahəsində xüsusi xidmətləri və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə “Şərəf” ordeni ilə təltif edilmişdir. |
| ***2018, 16 aprel*** | Dövlətçiliyin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə və elmin inkişafında böyük xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə “Şöhrət” ordeni ilə təltif edilmişdir. |
| ***2018, aprel*** | Rusiya Federasiyası Prezidentinin sərəncamı ilə "Şərəf” ordeni ilə təltif edilmişdir. |